# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Təhsil naziri Mikayıl Cabbarov dekabrın 18-də Sabirabaddakı Heydər Əliyev Mərkəzində Şirvan şəhər, Sabirabad, Saatlı və İmişli rayonlarından olan vətəndaşları qəbul edib.

Müraciətlər əsasən müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, işə bərpa olunma, təhsil sənədlərinin tanınması, ali və orta ixtisas məktəbləri tələbələrinin bir təhsil müəssisəsindən digərinə köçürülməsi, tədris müəssisələrinin maddi-texniki bazalarının yaxşılaşdırılması və digər məsələlərlə bağlı olub.

Qəbulda vətəndaşların müraciətləri dinlənilib və əksər məsələlər yerindəcə həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Bəzi vətəndaşların nazirliyin səlahiyyətlərinə aid olmayan və ya şəxsi xarakter daşıyan müraciətləri isə müvafiq qurumlara çatdırılmaq üçün qeydə alınıb və nəzarətə götürülüb.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov dekabrın 18-də Ağdaş rayonundakı Heydər Əliyev Mərkəzində Ağdaş, Yevlax və Goranboy rayonlarının, Mingəçevir və Naftalan şəhərlərinin sakinlərini fərdi qaydada qəbul edərək müraciətlərini dinləyib. Müraciətlər əsasən imtiyazlı kateqoriyalardan olan şəxslərin dövlət büdcəsi hesabına mənzil və minik avtomobili, reabilitasiya vasitələri ilə təmin olunma, məşğulluğuna və müalicəsinə kömək göstərilməsi, əmək hüquqlarının müdafiəsi məsələləri ilə bağlı olub. Hər bir müraciət nazirliyin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb. Səlim Müslümov bir sıra müharibə əlillərinin minik avtomobilinə tibbi göstəriş almaq hüququnun tibbi-sosial ekspertiza xidməti tərəfindən müəyyən olunması, işaxtaran şəxslərə boş (vakant) iş yerlərinə göndərişlərin verilməsi, ayrı-ayrı şəxslərin bu və ya digər sosial təminat hüquqlarının araşdırılaraq qanunauyğun cavablandırılması barədə tapşırıqlar verib.

Nazir vətəndaşların mənzillə təmin olunmaq üçün etdikləri müraciətlərlə əlaqədar bildirib ki, müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı işləri rayon (şəhər) icra hakimiyyətlərindən daxil olmuş siyahılara əsasən növbəlilik əsasında uğurla davam etdirilir.

Nazir qəbul edilən ayrı-ayrı vətəndaşların müraciətlərinə əsasən onların əlillik müayinələrinin aparılmasını və nəticələrə uyğun olaraq qərar qəbul edilməsini, əlilliyi olan şəxslərin müalicəsinə kömək göstərilməsini tapşırıb. Bir neçə müraciət nazirliyin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı sorğu xarakteri daşıyıb və bununla əlaqədar hüquqi izahatlar verilib.

* * *

Vergilər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dekabrın 18-də vergilər naziri Fazil Məmmədov tərəfindən Yevlax rayonunda Ağdaş, Yevlax, Ucar, Zərdab rayonlarından olan vətəndaşlar üçün qəbul keçirilib.

Qəbulda vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, POS-terminalların quraşdırılması, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

* * *

Nəqliyyat naziri Ziya Məmmədov dekabrın 18-də Xızıdakı Heydər Əliyev Mərkəzində Abşeron, Siyəzən və Xızı rayonlarından olan 50-dən çox vətəndaşı qəbul edərək, onların şikayət və təkliflərini dinləyib.

Qəbul zamanı vətəndaşlar Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 26-cı kilometrliyində piyada keçidinin inşası, həmin yolun 56-cı kilometrliyindən ayrılan və Yeni Yaşma kəndinə aparan yolun əsaslı təmiri, Abşeronun Hökməli kəndində iki kilometr uzunluğunda avtomobil yolunda cari təmir işlərinin aparılması ilə bağlı müraciət ediblər. Bununla yanaşı, qəbulda Xızının Giləzi qəsəbəsində, Sitalçay və Yeni Yaşma kəndlərində dayanacaqların qurulması, Bakı-Xızı-Bakı marşrutu üzrə ortatutumlu yeni avtobusların hərəkətinin təşkili, Abşeronun Masazır qəsəbəsində yeni salınan və 3 min nəfərin yaşadığı yaşayış massivindən Xırdalan şəhərinə birbaşa marşrut xəttinin açılması və digər məsələlərlə bağlı müraciətlər də dinlənilib.

Qaldırılan məsələlərin bəziləri yerindəcə həllini tapıb. Vətəndaşların digər müraciətləri ilə bağlı nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Dekabrın 18-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində Kürdəmir, İmişli, Saatlı, Sabirabad, Beyləqan, Füzuli, Ağdam və Xocavənddən gələn sakinləri qəbul edib.

Nazirliyin müvafiq struktur rəhbərlərinin də qatıldıqları qəbulda vətəndaşlar tərəfindən edilən müraciətlər əsasən rayonlarda mədəniyyət müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, ixtisaslı kadrlarla təminat, tarix-mədəniyyət abidələrinin təmir-bərpası, mühafizəsi, kitabxana şəbəkəsinin təkmilləşdirilməsi, turizmin inkişaf etdirilməsi, habelə işlə təminat və digər sosial məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, bir sıra müraciətlər yerindəcə həll edilib. Araşdırılması zəruri olan müraciətlər isə qeydiyyata alınıb, onların həlli üçün konkret tapşırıqlar verilib.

* * *

Səhiyyə naziri Oqtay Şirəliyev dekabrın 18-də İmişli Rayon Mərkəzi Xəstəxanasında vətəndaşlar üçün qəbul keçirib. Qəbulda İmişli, Saatlı, Sabirabad, Beyləqan və Ağcabədi rayonlarından olan 56 vətəndaşın sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, bəziləri yerindəcə həllini tapıb.